“Bolt+ x Air Arabia” Kampaniyasının Şərtləri və Qaydaları

1. Ümumi müddəalar

1.1. Bolt Services AZ MMC (hüquqi ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Mustafa Kamal Atatürk prospekti, ev 93, VÖEN: 1503463041) (bundan sonra “**Bolt**”) Air Arabia (https://www.airarabia.com) ilə tərəfdaşlıq çərçivəsində Bolt Food platformasında Bolt+ abunəliyi vasitəsilə keçirilən **“Bolt+ x Air Arabia”** kampaniyasının (bundan sonra “**Kampaniya**”) təşkilatçısıdır.

1.2. Kampaniya 16 noyabr 2026-cı il tarixdən 14 dekabr 2026-cı il tarixədək (daxil olmaqla) (GMT+4) keçirilir (bundan sonra “**Kampaniya Müddəti**”).

1.3. Yalnız Azərbaycanda qaydalara uyğun Bolt hesabı olan, 18 yaşına çatmış (və ya vətəndaşı olduğu ölkənin qanunvericiliyinə əsasən tam fəaliyyət qabiliyyətli olan) Bolt+ abunəçiləri (bundan sonra “**İştirakçılar**”) Qalib seçilmək hüququna malikdir.

1.4. Kampaniyanın keçirilmə qaydası bu Şərtlər və Qaydalar, habelə Kampaniyanın reklam və əlavə materiallarında göstərilən şərtlərlə müəyyən edilir və bütün İştirakçılar üçün məcburidir. Ziddiyyət yarandıqda bu Şərtlər və Qaydalar üstünlük təşkil edir.

1.5. Kampaniyada iştirak etmək üçün İstifadəçinin aktiv Bolt+ abunəliyi olmalıdır. İştirakçı Kampaniya Müddəti ərzində Bolt Food tətbiqi vasitəsilə Bolt Food-da mövcud olan Bolt+ nişanlı restoran və ya mağazadan sifariş verməklə Kampaniyada iştirak edir. Sifarişin Kampaniya çərçivəsində etibarlı sayılması üçün sifariş tamamlanmalı, yəni İştirakçı tərəfindən ödəniş edilməlidir (bundan sonra “**Uyğun Sifariş**”).

1.6. Sifariş yalnız Bolt+ restoranından və ya mağazasından sifariş verildiyi anda İştirakçının Bolt+ abunəliyi aktiv olduqda Uyğun Sifariş hesab olunur. Abunəlik aktivləşdirilməzdən əvvəl, onun müddəti bitdikdən və ya ləğv edildikdən sonra, yaxud abunəliyin dayandırıldığı və ya ödənilmədiyi dövrlərdə verilmiş sifarişlər nəzərə alınmır. Bolt+ pulsuz sınaq müddətində verilmiş sifarişlər nəzərə alınır. Abunəliyin statusu Bolt-un qeydləri əsasında müəyyən edilir. İştirakçı Kampaniyada qeydiyyatı tamamlamazdan əvvəl verilmiş sifarişlər, hətta onun Bolt+ abunəliyi artıq aktiv olsa belə, nəzərə alınmır.

1.7. Aşağıdakı sifarişlər Uyğun Sifariş hesab edilmir: (a) İştirakçı, restoran və ya mağaza tərəfindən ləğv edilmiş sifarişlər; (b) tam geri qaytarılmış sifarişlər, o cümlədən Kampaniya Müddəti bitdikdən sonra Qalib müəyyən edilənədək geri qaytarılmış sifarişlər; (c) tam ödənilməmiş sifarişlər; və (d) Bolt-un əsaslı şəkildə saxtakarlıq məqsədli, təkrar və ya 5-ci Bölmənin pozulması ilə verilmiş hesab etdiyi sifarişlər.

1.8. Bolt və Air Arabia əməkdaşları, habelə onların ailə üzvləri Kampaniyada iştirak edə bilməzlər.

1.9. Bu Kampaniya lotereya və ya hər hansı digər növ mərc oyunu deyil. Qalib heç bir təsadüfi seçim (püşkatma) olmadan yalnız Uyğun Sifarişlərin sayı əsasında müəyyən edilir. Ən çox Uyğun Sifarişi olan İştirakçı Kampaniyanın Qalibi seçiləcək.

2. Mükafat

2.1. Kampaniyanın Qalibi Air Arabia tərəfindən həyata keçirilən Bakı (Azərbaycan) – Şarja və ya Əbu-Dabi (Birləşmiş Ərəb Əmirlikləri) – Bakı marşrutu üzrə, vergilər daxil olmaqla, iki (2) gediş-dönüş aviabiletinə – bir (1) bilet Qalib üçün və bir (1) bilet Qalibin seçdiyi müşayiət edən şəxs (bundan sonra "**Müşayiətçi**") üçün – hüquq verən bir (1) Air Arabia vauçer məktubu (bundan sonra "**Vauçer Məktubu**") alacaq (bundan sonra "**Mükafat**").

2.2. Vauçer Məktubu üzərində göstərilən verilmə tarixindən etibarən 6 (altı) ay müddətində etibarlıdır və bütün səfərlər (gediş və dönüş uçuşları) bu müddət ərzində tamamlanmalıdır. Bu Maddədə açıq şəkildə nəzərdə tutulmuş hallar istisna olmaqla, etibarlılıq müddəti uzadıla bilməz. Etibarlılıq müddəti bitdikdən sonra Vauçer Məktubu etibarsız olur və heç bir kompensasiya ödənilmir. Vauçer Məktubu Air Arabia-nın bilet verə bilməməsi səbəbindən 6 ay ərzində istifadə edilmədikdə, onun etibarlılıq müddəti əlavə 3 ay uzadılır.

2.3. Mükafat şəxsidir, başqasına ötürülə bilməz, marşrutu dəyişdirilə bilməz, geri qaytarılmır, pul dəyəri yoxdur və heç bir şəkildə əvəz edilə və ya dəyişdirilə bilməz. Biletlər yalnız Qalibin və Müşayiətçinin pasportlarında göstərildiyi kimi onların adlarına verilir. Qalib iki sərnişindən biri olmalıdır və Qalib ilə Müşayiətçi eyni uçuşlarla birlikdə səyahət etməlidirlər.

2.4. Aviabiletə daxil olan bütün tətbiq olunan vergilər rezervasiya zamanı Air Arabia tərəfindən ödəniləcək. Bolt Mükafatın alınmasına görə Qalibdən heç bir haqq tutmur.

2.5. Mükafata 2.1-ci bənddə açıq şəkildə göstərilməyən xərclər, o cümlədən, lakin bunlarla məhdudlaşmayaraq, viza və giriş rüsumları, səyahət sığortası, yaşayış, hava limanı transferləri, qidalanma, əlavə baqaj, oturacaq seçimi, digər əlavə xidmətlər və şəxsi xərclər daxil deyil. Bu xərclər Qalib və Müşayiətçi tərəfindən ödənilir və nə Bolt, nə də Air Arabia Mükafatla bağlı heç bir xərci kompensasiya etmir.

2.6. Qalib və Müşayiətçinin hər biri etibarlı pasporta və (tələb olunarsa) vizaya malik olmağa, habelə Azərbaycan Respublikasının və Birləşmiş Ərəb Əmirliklərinin giriş, çıxış, gömrük və sağlamlıq tələblərinə əməl etməyə görə məsuliyyət daşıyır. Qalib Müşayiətçini bu Şərtlər və Qaydalar barədə məlumatlandırmağa və onlara əməl olunmasını təmin etməyə cavabdehdir. Müşayiətçi yetkinlik yaşına çatmamış şəxs olduqda, Air Arabia-nın yetkinlik yaşına çatmamış sərnişinlərə dair qaydaları tətbiq edilir. Qalib və ya Müşayiətçi bu səbəblərdən səyahət edə bilmədikdə, yaxud onun təyyarəyə minməsinə və ya ölkəyə girişinə icazə verilmədikdə, müvafiq bilet heç bir kompensasiya olmadan itirilmiş hesab edilir.

2.7. Kampaniyanın bir (1) Qalibi olacaq.

3. Qalibin seçilməsi

3.1. Qalib Bolt tərəfindən aşağıdakı meyarlar əsasında müəyyən ediləcək:

3.1.1. Kampaniya Müddəti ərzində ən çox Uyğun Sifariş tamamlayan İştirakçı Qalib olacaq;

3.1.2. Hər İştirakçı üçün Uyğun Sifarişlərin sayı məhdudlaşdırılmır və hər Uyğun Sifariş dəyərindən asılı olmayaraq bir dəfə hesablanır;

3.1.3. İki və ya daha çox İştirakçının ən yüksək Uyğun Sifariş sayı eyni olduqda, həmin saya daha tez çatan İştirakçı (son hesablanmış Uyğun Sifarişinin tamamlanma vaxtına əsasən) qalib gəlir; bərabərlik yenə də qalarsa, Uyğun Sifarişlərinin ümumi dəyəri (çatdırılma və xidmət haqları, habelə bəxşiş istisna olmaqla) daha yüksək olan İştirakçı qalib gəlir;

3.1.4. Qalibi təsdiq etməzdən əvvəl Bolt İştirakçının uyğunluğunu, Bolt+ abunəliyinin statusunu və sifariş tarixçəsini yoxlaya bilər;

3.1.5. Qalibin müəyyən edilməsi məqsədilə Bolt-un sifariş və abunəlik qeydləri yekun hesab olunur.

3.2. Bolt potensial Qalibi onun Bolt hesabı ilə əlaqələndirilmiş əlaqə məlumatlarından istifadə etməklə e-poçt, telefon zəngi və ya mesaj vasitəsilə məlumatlandıracaq. İştirakçılar öz əlaqə məlumatlarını aktual saxlamağa cavabdehdirlər.

3.3. Mükafatı qəbul etmək üçün potensial Qalib Bolt-un bildirişinə onun göndərildiyi tarixdən etibarən 10 (on) təqvim günü ərzində cavab verməli, Mükafatı qəbul etdiyini təsdiqləməli və 7-ci Bölmədə təsvir edildiyi kimi, uyğunluğunun yoxlanılması və Mükafatın təhvil verilməsinin təşkili üçün əsaslı şəkildə zəruri olan məlumatları təqdim etməlidir.

3.4. Bolt potensial Qalib tərəfindən hər hansı səbəbdən itirilmiş, bloklanmış və ya alınmamış bildirişə görə məsuliyyət daşımır. Potensial Qalib ilə əlaqə saxlamaq mümkün olmadıqda, o, 3.3-cü bənddə göstərilən müddət ərzində cavab vermədikdə, tələb olunan məlumatları təqdim etmədikdə və ya uyğunluq tələblərinə cavab vermədikdə, Mükafat itirilmiş hesab edilir. Bu halda Bolt eyni bildiriş qaydasından istifadə etməklə 3.1-ci bəndə uyğun olaraq növbəti İştirakçını Qalib seçmək hüququnu özündə saxlayır.

3.5. Bolt Mükafatın təqdim edildiyini öz veb-saytında və/və ya kampaniya bloqunda elan edə bilər. Qalibi müəyyənləşdirən istənilən elan 3.6-cı bəndin şərtlərinə tabedir.

3.6. Bolt Qalibin adını və soyadının baş hərfini yalnız Qalibin dərcdən əvvəl alınmış ayrıca razılığı ilə dərc edəcək. Bu razılıqdan imtina edilməsi və ya onun geri götürülməsi Mükafat hüququna təsir etmir.

4. Mükafatın təhvil verilməsi və istifadəsi

4.1. Vauçer Məktubu Qalibə Bolt-un ünvanında şəxsən, orijinal kağız formada təhvil veriləcək. Bolt şəxsiyyəti və uyğunluğu yoxlamaq üçün şəxsiyyəti təsdiq edən sənədə baxacaq, lakin Kampaniya üçün onun surətini saxlamayacaq və sənədin nömrəsini qeydə almayacaq. Qalibdən Mükafatın qəbulu formasını imzalamaq tələb oluna bilər. Qalib Vauçer Məktubunu razılaşdırılmış tarixdən etibarən 30 təqvim günü ərzində götürmədikdə, Mükafat itirilmiş hesab edilir.

4.2. Səyahəti rezerv etmək üçün Qalib satış ofisinə (ünvan: Bakı şəhəri, Rəşid Behbudov küçəsi 40, telefon: (012) 441 44 55) müraciət etməli, orijinal Vauçeri təqdim etməli, mövcud səyahət tarixlərini yoxlamalı və biletin verilməsini təşkil etməlidir.

4.3. Yerlərin mövcudluğunu təsdiqləmək üçün rezervasiya nəzərdə tutulan uçuş tarixindən ən azı 15 (on beş) gün əvvəl edilməlidir.

4.4. Bilet yalnız təsdiqlənmiş səyahət tarixləri ilə verilir və verildikdən sonra dəyişdirilə və ya ləğv edilə bilməz.

4.5. Bilet Air Arabia-nın marketinq kvotasından təqdim edilir və Air Arabia-nın daxili təsdiq prosedurlarına tabedir. İstənilən tarixlər və istiqamətlər üzrə onlayn göstərilən yerlərin mövcudluğu Mükafat üçün yerlərin mövcudluğuna zəmanət vermir. Air Arabia pik uçuşlar və yüksək mövsüm zamanı səyahəti məhdudlaşdırmaq hüququnu özündə saxlayır. Nə Bolt, nə də Air Arabia konkret səyahət tarixlərinin mövcudluğuna zəmanət vermir.

4.6. Səyahət Air Arabia-nın daşıma şərtlərinə və digər Air Arabia şərtlərinə tabedir. Hava daşıma xidmətlərinə görə yalnız Air Arabia məsuliyyət daşıyır. Bolt daşıyıcı və ya səyahət agenti deyil və uçuşların gecikməsinə, ləğvinə, cədvəl dəyişikliklərinə, təyyarəyə minməyə icazə verilməməsinə, baqajın itməsinə və ya uçuşla bağlı hər hansı digər məsələlərə görə məsuliyyət daşımır.

4.7. Təhvil verildikdən sonra Vauçer Məktubunun itməsi və ya zədələnməsi riskini Qalib daşıyır. Bolt itirilmiş və ya zədələnmiş Vauçer Məktubunu əvəz etməyəcək.

4.8. Vauçer Məktubunun tətbiqi və istifadəsini tənzimləyən tam şərtlər – o cümlədən biletin verilməsi, rezervasiya prosedurları, tarif qaydaları və uçuş məhdudiyyətləri – Air Arabia tərəfindən müəyyən edilir və Air Arabia-nın veb-saytında (https://www.airarabia.com) mövcuddur. Bu müddəalarla tanış olmaq və onlara əməl etmək üçün yeganə məsuliyyəti Qalib daşıyır. Aviabilet rezervasiyası, biletin rəsmiləşdirilməsi və ya hava daşınması ilə bağlı istənilən sorğu, şikayət və ya mübahisə birbaşa Air Arabia-ya təqdim edilməli və yalnız onun tərəfindən həll edilməlidir. Bolt-un iştirakı yalnız Qalibin seçilməsi ilə məhdudlaşır; müvafiq olaraq, Bolt sonrakı səyahət iddiaları ilə bağlı heç bir məsuliyyət daşımır və tərəf hesab edilə bilməz.

5. Qadağan olunmuş davranış

5.1. İştirakçı hər hansı saxtakar, qeyri-etik və ya qanunsuz fəaliyyətlə, Bolt üçün qeyri-şəffaf olan hər hansı fəaliyyətlə, yaxud Kampaniyanın şərtlərindən qəsdən və ya qəsdsiz sui-istifadə edən və ya onlardan yan keçən hər hansı fəaliyyətlə, o cümlədən çoxsaylı hesablar yaratmaq, saxta sifarişlər vermək və ya ləğv edilmək məqsədilə sifarişlər verməklə məşğul olmamalıdır.

5.2. İştirakçı Bolt-a yalan və ya çaşdırıcı məlumat (o cümlədən yaş, fəaliyyət qabiliyyəti, şəxsiyyət və s. barədə) təqdim etməməlidir.

5.3. İştirakçı həmçinin (birbaşa və ya dolayısı ilə, məsələn, referal keçidlər və ya hər hansı digər vasitələrlə) aşağıdakı materialları nümayiş etdirməməli və ya ötürməməlidir:

5.3.1. yersiz, qeyri-etik, hədələyici, təhqiramiz və ya başqasının şəxsi həyatına müdaxilə edən, yaxud narahatlıq, əlverişsizlik və ya əsassız həyəcan yaradan materiallar;

5.3.2. hər hansı digər şəxsi təqib etmək, üzmək, utandırmaq, təşvişə salmaq və ya narahat etmək ehtimalı olan materiallar;

5.3.3. hər hansı şəxsi təqlid edən və ya İştirakçının şəxsiyyətini, yaxud hər hansı şəxslə əlaqəsini yanlış təqdim edən materiallar;

5.3.4. Bolt tərəfindən bu məqsədlə İştirakçıya xüsusi olaraq təqdim edilmədiyi halda, materialın Bolt və ya Air Arabia-dan qaynaqlandığı təəssüratını yaradan materiallar; və ya

5.3.5. Bolt-un və ya Air Arabia-nın nüfuzuna xələl gətirən materiallar.

6. Məsuliyyət və öhdəliklər

6.1. Kampaniyada iştirak etməklə İştirakçılar bu Şərtlər və Qaydalarla tanış olduqlarını və onlarla razılaşdıqlarını təsdiq edirlər.

6.2. Fors-major hallarında (təbii fəlakətlər, hərbi əməliyyatlar, epidemiyalar, dövlət orqanlarının qərarları və Bolt-un və ya Air Arabia-nın nəzarətindən kənar digər hallar) Bolt Kampaniyanı müvəqqəti dayandırmaq və ya vaxtından əvvəl başa çatdırmaq hüququna malikdir. Bolt İştirakçıları mümkün qədər tez Bolt-un veb-saytı, müştəri kommunikasiyaları, e-poçt və/və ya sosial media kanalları vasitəsilə məlumatlandıracaq. Bolt və Air Arabia fors-major hallarının təsirinə məruz qalan öhdəliklərin icra edilməməsinə və ya lazımi qaydada icra edilməməsinə görə məsuliyyət daşımır.

6.3. Bolt-un nəzarətindən kənar digər hallar (o cümlədən Air Arabia-nın müvafiq marşrut üzrə uçuşları dayandırması və ya bileti verə bilməməsi) səbəbindən Mükafatın təqdim edilməsi qeyri-mümkün olduqda, Air Arabia/Bolt Qalibə əvəzedici mükafat təklif edə bilər. Əvəzedici mükafatın təqdim edilməsi də qeyri-mümkün olduqda, Bolt-un Mükafatla bağlı öhdəliyinə xitam verilir. Bu halda İştirakçıların Kampaniya çərçivəsində verdikləri sifarişlər adi icra edilmiş sifarişlər kimi qiymətləndirilir və onlarla bağlı heç bir əlavə kompensasiya ödənilmir. Bu, İştirakçının qanunla müəyyən edilmiş hüquqlarını məhdudlaşdırmır.

6.4. Bolt bu Şərtlər və Qaydalara dəyişiklik və əlavələr etmək hüququnu özündə saxlayır. Dəyişikliklər eyni qaydada elan ediləcək.

6.5. İştirakçı tərəfindən bu Şərtlər və Qaydalar pozulduqda, Bolt əvvəlcədən xəbərdarlıq etmədən onu Kampaniyadan diskvalifikasiya etmək və/və ya Mükafatı ləğv etmək hüququnu özündə saxlayır.

6.6. Bolt üçüncü şəxslər, o cümlədən Air Arabia tərəfindən yaradılan və İştirakçının Kampaniyada iştirakına və ya Mükafatdan istifadəsinə mane olan hər hansı nasazlıqlara görə məsuliyyət daşımır. Bolt-un Mükafatla bağlı öhdəliyi Vauçer Məktubunun Qalibə təhvil verilməsi ilə məhdudlaşır.

7. Məxfilik

7.1. Kampaniya çərçivəsində Bolt İştirakçıların fərdi məlumatlarını onların iştirakını qeydiyyata almaq, uyğunluğu və Uyğun Sifarişləri yoxlamaq, Qalibi müəyyən etmək və onunla əlaqə saxlamaq, Mükafatın təhvil verilməsini təşkil etmək və Kampaniya ilə bağlı sorğuları cavablandırmaq məqsədilə, Kampaniyanın şərtlərinin yerinə yetirilməsi üçün zəruri olan həcmdə, Azərbaycan Respublikasının 11 may 2010-cu il tarixli 998-IIIQ nömrəli “Fərdi məlumatlar haqqında” Qanununa uyğun olaraq emal edir.

7.2. Emal edilən fərdi məlumatlara İştirakçının adı, soyadı və Bolt hesabı ilə əlaqələndirilmiş əlaqə məlumatları, Bolt+ abunəliyinin statusu, habelə hesab identifikatoru, razılıq qeydləri, Uyğun Sifarişləri müəyyən etmək və seçim meyarlarını tətbiq etmək üçün zəruri olan sifariş məlumatları, o cümlədən

sifarişlərin sayı, tamamlanma vaxtları, ödəniş/geri qaytarma statusu və müvafiq sifariş dəyərləri daxildir.

7.3. Qalib aviabiletin rezervasiyası üçün tələb olunan fərdi məlumatları, o cümlədən hər hansı pasport və Müşayiətçi məlumatlarını birbaşa Air Arabia-ya təqdim edəcək və həmin emala görə Air Arabia öz məxfilik bildirişi əsasında məsuliyyət daşıyır. Bolt İştirakçıların Kampaniya qeydlərini Air Arabia-ya təqdim etməyəcək. Bolt qrup şirkətləri və xidmət təminatçıları tərəfindən emal, o cümlədən beynəlxalq ötürmələr Bolt Food Müştəri Məxfilik Bildirişində ətraflı təsvir edilir. İstənilən ötürmə Azərbaycanın tətbiq olunan tələblərinə və tətbiq edildiyi hallarda GDPR-a uyğun olmalıdır.

7.4. İştirakçılar tətbiq olunan qanunvericiliyin şərtlərinə və məhdudiyyətlərinə uyğun olaraq öz fərdi məlumatlarına çıxış əldə etmək, onların düzəldilməsini və ya silinməsini, emalın məhdudlaşdırılmasını tələb etmək, emala etiraz etmək, habelə məlumatların daşınması hüququna malikdirlər. Fərdi məlumatlar razılıq əsasında emal edildikdə, İştirakçı razılığın geri götürülməsindən əvvəl həmin razılıq əsasında həyata keçirilmiş emalın qanuniliyinə təsir etmədən istənilən vaxt razılığını geri götürmək hüququna malikdir. Bolt həmin razılığa əsaslanan emalı dayandıracaq. Zəruri emalın qanuni şəkildə davam etdirilməsi artıq mümkün olmadıqda, Bolt İştirakçının iştirakını davam etdirə və ya Mükafatın təhvil verilməsini başa çatdıra bilməyə bilər. Razılığın geri götürülməsi Bolt+ və ya Bolt Food-dan adi qaydada istifadəyə təsir etmir.

7.5. Fərdi məlumatlarınızla bağlı sorğuları bu forma (https://bolt.eu/az-az/privacy/data-subject/) vasitəsilə təqdim edə və ya Kampaniyada iştirak, yaxud ictimai açıqlama ilə bağlı razılığınızı geri götürmək üçün tətbiqdə Bolt Food Dəstək xidməti ilə əlaqə saxlaya bilərsiniz. Lütfən, sorğunuzda “Bolt+ x Air Arabia” Kampaniyasını qeyd edin.

7.6. Bolt Kampaniyaya aid qeydləri yalnız Kampaniyanı idarə etmək, Mükafatın təhvil verilməsini başa çatdırmaq və Kampaniya ilə bağlı sorğuları həll etmək üçün zəruri olan müddətdə, hər halda isə Kampaniya Müddəti bitdikdən sonra 5 aydan çox olmayaraq saxlayacaq; razılığın geri götürülməsi ilə əlaqədar daha tez silinmə tələb olunduğu hallar istisna təşkil edir. Bu qeydlər sonra silinəcək və ya geri dönməz şəkildə anonimləşdiriləcək. Qanunla tələb olunan hər hansı qeydlər yalnız tətbiq olunan qanuni müddət ərzində saxlanılacaq. Əsas Bolt hesabı və sifariş qeydləri Bolt Food Müştəri Məxfilik Bildirişində təsvir edilmiş saxlama qaydalarına tabe olaraq qalır.

7.7. Bolt-un fərdi məlumatları necə emal etməsi barədə ətraflı məlumat üçün, lütfən, bu Kampaniyaya aid 7-ci Bölmə ilə birlikdə https://bolt.eu/az-az/privacy/ ünvanında yerləşən məxfilik bildirişlərimizlə tanış olun.

8. Bolt ilə əlaqə və yekun müddəalar

8.1. Kampaniyanın təşkili ilə bağlı istənilən şikayət və ya suallar Kampaniya Müddəti ərzində və 3-cü Bölməyə uyğun olaraq Qalibin elan edildiyi tarixdən etibarən 10 (on) təqvim günü ərzində Bolt-a (azerbaijan-food@bolt.eu) və ya Bolt tətbiqi vasitəsilə Dəstək Komandasına təqdim edilə bilər. Bolt bu müddətdən sonra təqdim edilmiş şikayətlərə baxmamaq qərarına gələ bilər. Bu şikayət müddəti

İştirakçıların 7-ci Bölmə üzrə fərdi məlumatların qorunması ilə bağlı hüquqlarını məhdudlaşdırmır.

8.2. Bu Kampaniyada iştirak Azərbaycan ərazisində tətbiq olunan və https://bolt.eu/en-az/legal/other/ ünvanında əlçatan olan Bolt+ Şərtləri və Qaydalarına (bundan sonra "**Bolt+ Şərtləri**") tam riayət edilməsini və onlara əməl olunmasını tələb edir. Kampaniyada iştirak etməklə (Uyğun sifarişlər etməklə) İştirakçılar Bolt+ Şərtlərini diqqətlə nəzərdən keçirdiklərini və onlarla qeyd-şərtsiz razılaşdıqlarını təsdiq edirlər. Bu Şərtlər və Qaydaların müddəaları ilə Bolt+ Şərtləri arasında hər hansı uyğunsuzluq yarandıqda, yalnız Kampaniyaya aid məsələlər üzrə bu Şərtlər və Qaydalar üstünlük təşkil edir.

8.3. Vauçer Məktubu, biletlər, rezervasiya və digər səyahət məsələləri ilə bağlı sorğular Air Arabia-ya ((012) 441 44 55, Bakı şəhəri, Rəşid Behbudov küçəsi 40, Azərbaycan) ünvanlanmalıdır.

8.4. Bu Şərtlər və Qaydalar Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir. İstənilən mübahisələr danışıqlar yolu ilə, razılıq əldə edilmədikdə isə Azərbaycan Respublikasının səlahiyyətli məhkəmələrində həll edilir.

8.5. Bu Şərtlər və Qaydaların dil versiyaları arasında uyğunsuzluq olduqda, Azərbaycan dilində olan versiya üstünlük təşkil edir.